**“CPM-İnvest İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti**

**Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 400 (dörd yüz) ədəd adi adlı sənədsiz səhmlərin**

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı 2024-cü il**

**MÜNDƏRİCAT**


**BƏYANAT ........ 4**

**XÜLASƏ ........ 5**

**1. XƏBƏRDARLIQ ........ 5**

**2. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 5**

**3. SƏHMLƏR HAQQINDA MƏLUMAT ........ 8**

**4. RİSK FAKTORLARI ........ 10**

**5. TƏKLİF ........ 11**

**SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ........ 15**

**6.EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ........ 15**

**7.SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ........ 15**

**8. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 16**

**9. EMİTENTİN BİZNESİNİN İCMALI ........ 17**

**10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ........ 18**

**11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ ........ 18**

**13. EMİTENTİN KAPİTAL RESURSLARI ........ 21**

**14. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR ........ 22**

**15. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ........ 23**

**16. GƏLİR PROQNOZU:** Gəlir proqnozu mövcud deyil. **........ 23**

**17. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ........ 23**

**18.EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI ........ 26**

**19. İCRA ORQANININ İŞGÜZAR PRAKTİKASI ........ 27**

**20. EMİTENTİN İŞÇİ HEYƏTİ ........ 29**

**21. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR ........ 29**

**22. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR ........ 30**

**23. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ........ 31**

**24. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ........ 35**

**SƏHMLƏR BARƏDƏ MƏLUMAT ........ 40**

**25. ƏSAS MƏLUMAT ........ 40**

**26. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT ........ 42**

**27. TƏKLİFİN ŞƏRTLƏRİ ..................... 44**
**28. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ ..................... 49**
**29. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT ..................... 50**
**30. EMİSSİYA XƏRCİ ..................... 50**
**31. PAYIN AZALMASI ..................... 50**

Səhmlərin emissiya prospektinin tərtib edilməsində iştirak edən şəxslər və emissiya prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 400 (dörd yüz) ədəd adi, adlı, sənədsiz səhmlərinin Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin İcraçı Direktoru:**

AZƏRBAYCAN RESPUBLİKASI
CPM - İNVEST
İNVESTİSİYA ŞİRKƏTİ
Açıq Səhmdar Cəmiyyəti
CPM - INVEST
INVESTMENT COMPANY
Open Joint-Stock Company

**Hadiyev Nəriman Sabir oğlu** ______________________

**Tarix: 15 fevral 2024-cü il**

**"CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Mühasibi:**

**Muradova Ellada Sarvan qızı** ______________________

**Tarix: 15 fevral 2024-cü il**

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQ

**1.1.** Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

**1.2.** Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

**1.3.** Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. EMİTENT BARƏDƏ MƏLUMAT

**2.1.** **Emitentin tam adı:** "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət).

**2.2.** **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, ev 102A, m. "City Point Baku", AZ1022; Açıq Səhmdar Cəmiyyəti. Emitent Azərbaycan Respublikası Prezidentinin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə 27.01.2021-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən dövlət qeydiyyatına alınmışdır.VÖEN:1405409161.

**2.3.** **Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi**: Emitentin müstəsna fəaliyyət istiqaməti investisiya şirkəti fəaliyyətidir. Bu fəaliyyət ilə əlaqədar olaraq qiymətli kağızlar bazarı əsas göstəricidir. "Bakı Fond Birjası" QSC-nin illər üzrə aylıq statistik hesabatlarına uyğun olaraq 2023-cü ilin yanvar-dekabr ayları ərzində qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 27,335,355,405 manat təşkil etmişdir və ötən ilin müvafiq dövrü ilə müqayisədə 83% böyümə qeydə alınmışdır. Nəticə olaraq, ötən ilin müvafiq dövrü ilə müqayisədə korporativ qiymətli kağızların ilkin bazarın səhmləri üzrə ticarət həcmində 22%, repo əməliyyatları üzrə 244% artım olmuşdur. O cümlədən, ötən il ilə müqayisədə korporativ qiymətli kağızların repo əməliyyatların bazarı üzrə 177% artım qeydə alınmışdır. 2023-cü ilin dekabr ayının son ticarət günü üzrə səhm bazar kapitalizasiyası 5,000,904,144 manat təşkil etmiş və ötən ilin son ticarət günü ilə müqayisədə 22% böyümə qeydə alınmışdır. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC yerli bazarda göstərilən investisiya xidmətləri üzrə 2022-ci ildə 1.260.701 manat, 2023 cü ildə 1.642.183 manat xalis mənfəət qazanmışdır**.** Emitentin son 3 illik maliyyə hesabatlarına əsasən gəliri formalaşdıran xidmətlərin 75%-i ticarət əməliyyatları, 15%-i müştəri sifarişlərindən əldə olunan gəlir, 10% isə faiz (kupon) gəlirləri hesabına olmuşdur.

2.4. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib tendensiyaların təsviri:** Cəmiyyət qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətləri üzrə fəaliyyəti göstərir. Cəmiyyətin əsas fəaliyyətinin investisiya xidmətləri üzrə olduğunu nəzərə alaraq, bu sahədə Cəmiyyətə təsir edən tendensiyalar ölkəmizdə mövcud olan iqtisadi vəziyyətə uyğun olaraq dəyişir. Son dövrlər investisiya xidmətləri üzrə banklara məhdud lisenziyanın verilməsi Cəmiyyətin xidmət sahəsinin daralmasına təsir edəcəkdir. Ötən dövr ərzində ölkəmizin iqtisadiyyatında baş verən dalğalanmalar Cəmiyyətə öz müsbət və mənfi təsirini göstərir belə ki, repo faiz indekslərinin artması ticarət dövriyyəsindən əldə olunan gəlir marjasının azalmasına səbəb olub. Buna baxmayaraq Cəmiyyət digər xidmət sahələrini və müştəri bazasını genişləndirərək, rəqabət mühitinə uyğunlaşaraq bazarda mövqeyini möhkəmləndirməyi bacarır. Hazırda Banklara bir sıra investisiya xidmətlərinin göstərilməsinə icazənin verilməsi Emitentin satış gəlirlərinin azalmasına mənfi təsir edə bilər. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 2025-ci ilədək Azərbaycanda səhm və istiqraz bazarları artıq səmərəli fəaliyyət mərhələsinə çatacaqdır. Ölkədə fəaliyyət göstərən iri şirkətlərin əhəmiyyətli hissəsi listinqə daxil olacaq, yerli və xarici investorlar bu şirkətlərin emissiya etdiyi qiymətli kağızların böyük hissəsi ilə aktiv ticarət əməliyyatları aparacaqdır.

2.5. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**
Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir.
“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti (BFB) - üzv
Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) - üzv

2.6. **Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Soyadı, adı, ata adı | Adi səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti | Vətəndaşlıq |
|---|---|---|---|
| Məmmədova Kəmalə Qələndər qızı | 400 | 100% | Azərbaycan Respublikası |

2.7. **Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat:** Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə “bir səsli səhm - bir səsdir” prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs

çoxluğu ilə qəbul edilir. Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı altmış faizinin sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

2.8. **Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** Mühüm iştirak payının sahibi Emitentə nəzarəti Emitentin Nizamnaməsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı olan Səhmdarların Ümumi Yığıncağı Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.

2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır:**

| Göstəricilər | 2023 Audit olunmuş (manatla) | 2022 Audit olunmuş (manatla) | 2021 Audit olunmuş (manatla) |
|---|---|---|---|
| Xalis mənfəət | 1.642.183 | 1.260.701 | 410.268 |
| Cəmi öhdəliklər | 462.427 | 15.100.297 | 1.322.367 |
| Cəmi kapital | 2.442.183 | 1.980.701 | 810.268 |
| Cəmi aktivlər | 2.904.610 | 17.080.997 | 2.132.635 |
| Pul vəsaitləri | 200.022 | 39.676 | 960.337 |

Seçilmiş maliyyə məlumatlarından göründüyü kimi, Emitentin mənfəəti son üç il ərzində 1.642.183,00 manata qədər yüksəlmişdir. Bundan əlavə olaraq, qeyd edilməlidir ki, emitentin cəmi aktivləri və kapitalı 2022-ci ilin sonu ilə müqayisədə 2023-cü ildə azalmışdır, buna səbəb 2022-ci ildə repo əməliyyatları hesabına aktivlərin artması olmuşdur. Emitentin cəmi uzunmüddətli aktivləri 2023-cü ilinin sonuna 284.797,00 manat, cari aktivləri isə 2.619.812,00 manat kimi müəyyən olunmuşdur. Həmçinin qeyd edilməlidir ki, emitentin öhdəlikləri 2023-cü ilin sonuna 462.427,00 manata çatmışdır.

2.10. **Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:** Seçilmiş proforma maliyyə məlumatı mövcud deyil.

2.11. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

2.12. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** "Caspian Consulting and Partners" MMC tərəfindən "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən

qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditi aparıldı. Kənar audit şirkətinin rəyinə görə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq ədalətli əks etdirir

2.13. **Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:** Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmə imkanına malikdir.

## 3. SƏHMLƏR HAQQINDA MƏLUMAT

3.1. **Səhmlərin növü və qeydiyyat nömrəsi (tədavüldə olan)** adi adlı sənədsiz səs hüququ verən səhm (bundan sonra: səhm və ya səhmlər), AZ1001023204

3.2. **Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:** Mövcud deyil

3.3. **Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:** Emitentin törəmə müəssisəsi mövcud deyil.

3.4. **Səhmlərlə təsbit olunan hüquqlar:**

- Cəmiyyətin idarə edilməsində qanunvericiliklə və Cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- İcra Orqanının və Müşahidə Şurasının üzvlərinin səhlənkarlığına və Cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;
- Bağlanmış əqd nəticəsində Cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

- Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq.
- Qüvvədə olan qanunvericiliklə və Cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**3.5. Səhmlərlə təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil.

**3.6. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra “Bakı Fond Birjası“ QSC-nin (BFB) ticarət platformasında abunə yazılışı yolu ilə həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş Tənzimlənən bazarda ticarətə buraxılma “Bakı Fond Birjası” QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları” na əsasən həyata keçirilir.

BFB 2000-ci ildə Qapalı Səhmdar Cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az
Elektron poçt ünvanı: info@bse.az
Əlaqə vasitəsi: +99412 498 98 20
VÖEN: 1700262271
Lisenziya müddəti: müddətsiz.

**3.7. Emitentin dividend siyasətinin təsviri:** Dividend – hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər

məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir. Səhmdar cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar cəmiyyətinin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın Mülki Məcəllə ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.

## 4. RİSK FAKTORLARI

### 4.1. Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

- Valyuta riski – valyuta məzənnəsinin kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Əmtəə qiymət riski - əmtəə qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;
- Konsentrasiya riski - Şirkətin fərdi müştəri və ya müştəri qrupuna qarşı məcmu kapitalının 25%-ni keçən riskləri;
- Səhm qiymət riski - səhm qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;
- Spesifik borc aləti qiymət riski - borc alətləri üzrə emitentlə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;
- Spesifik mövqe riski - maliyyə alətinin emitenti ilə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;
- Hüquqi risk - qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;
- Sosial-siyasi risk– siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;

- Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).

**4.2. Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları:**

Cəmiyyətin fəaliyyət göstərdiyi sahəyə xas digər risk faktorları aşağıdakılardır:

- Əməliyyat riski – daxili proseslər, sistemdəki pozuntular, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləridir. Əməliyyat risklərinə Cəmiyyətin texniki sistemlərinin fəaliyyətində pozuntular riski, elektron sistemlərində və proqram təminatında səhvlər və dayanmalar riski, şirkət işçilərinin idarəetmə, daxili nəzarət və/və ya daxili uçot sistemində yol verdiyi pozuntular riski, həmçinin peşəkar fəaliyyətin digər tələblərinin pozulması ilə əlaqədar səhvlər riski, xidməti məlumatın istifadəsi ilə qiymətli kağızlar və maliyyə alətləri ilə əqdlərin bağlanması zamanı müştərilərin və/və ya kontragentlərin hüquqlarının pozulmasına gətirib çıxaran risklər aiddir;

- Nüfuz riskləri – Cəmiyyətin maliyyə sabitliyi, onun göstərdiyi xidmətlərin keyfiyyəti və ya bütövlükdə fəaliyyətin xarakteri haqqında mənfi fikrin formalaşması nəticəsində müştərilərin sayının azalması ilə əlaqədar olaraq Cəmiyyətdə itkilərin baş verməsi riskidir;

- Likvidlik riski – aktivlərin satışı mümkün olmadığı və/və ya aktivlərin satış qiyməti əlverişsiz olduğu, habelə Cəmiyyətin borc aldığı qiymətli kağızların yerləşdirilməsi mümkün olmadığı və/və ya belə yerləşdirmə vaxtsız və ya qiymət parametrləri əlverişsiz olduğu təqdirdə Cəmiyyətin maliyyə itkilərinin mümkünlüyüdür.

## 5. TƏKLİF

**5.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:**

Emissiya prospektinin dövlət qeydiyyatına alınması ilə bağlı dövlət rüsumu - 1200 manat; “Bakı Fond Birjası” QSC-nin səhmlərinin yerləşdirilməsi üzrə xidmət haqqı 0,05% (min.0.5-max.500 azn). Xidmət haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir. Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0,02%-i (minimum 50, maksimum 5000) ödənilir. Səhmlərin listinqə salınması üçün olan xidmət haqqı - 500 manat. Cəlb olunacaq vəsaitlərin xalis məbləği 397 740 AZN (üç yüz doxsan yeddi min yeddi yüz qırx manat) təşkil edəcək.

**5.2. Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği:**

Təklifin səbəbi nizamnamə kapitalının artırılmasıdır. Əldə olunmuş gəlir Emitentin dövriyyə kapitalının artırılmasına yönəldiləcəkdir. İnvestisiya qiymətli kağızların bir növü olaraq hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 400 (dörd yüz) ədəd adi, adlı, sənədsiz səhmlərin təklifi onların yerləşdirilməsi yolu ilə investorlardan sərbəst vəsaitlərin Emitentin Nizamnamə kapitalına cəlb edilməsi məqsədilə həyata keçirilir. Əldə olunmuş gəlir emitentin dövriyyə kapitalının artırılmasına

yönəldiləcəkdir. Cəlb olunacaq vəsaitlərin xalis məbləği 397 740 AZN (üç yüz doxsan yeddi min yeddi yüz qırx manat) təşkil edəcək.

**5.3. Təklifin şərtlərinin təsviri:**

Hər birinin nominal dəyəri 1000 AZN (bir min manat) olan 400 (dörd yüz) ədəd səhmlərin təklifi nəzərdə tutulur. İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur.

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri “CPM-İnvest İnvestisiya Şirkəti” ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya səhmdarlar üstünlük hüququndan istifadə ilə əlaqədar münasibət bildirdikdən sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 iş günündən çox olmayacaqdır. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan “Azər-Türk Bank” ASC-də - emitentin açdığı müvəqqəti cari hesabda (yığım hesabı) saxlanılır. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**5.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**“Bakı Fond Birjası” QSC.** Emissiya prosesində iştirak edən “Bakı Fond Birjası” QSC (BFB) yeni emissiya edilmiş qiymətli kağızların listinqə daxil edilməsi, hərrac vasitəsilə qiymətli kağızların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;

- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasında depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır: qiymətli kağızların saxlanması və uçotunun aparılması; qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

**"CPM-İnvest İnvestisiya Şirkəti" ASC**. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. Emitentin qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, səhmlərin anderrayteri (öhdəlik götürmədən) qismində özü çıxış edəcəkdir. Bu xidmətin göstərilməsinə görə xidmət haqqı nəzərdə tutulmamışdır.

Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İcraçı direktoru Nəriman Hadiyev, Emitentin mühasibi Ellada Muradova, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir və emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyəti şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond Birjası səhmlər yerləşdirildikcə komissiya əldə edir və birbaşa maddi marağı vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.5. Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:** Təklif edilən səhmlərin mülkiyyətçiləri mövcud deyil.

**5.6. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):** Səhmlər kütləvi təklif edilir, lakin emitentin səhmdarları öz üstünlük hüquqlarından istifadə etdiyi təqdirdə nizamnamə kapitalında payı 800 (səkkiz yüz) ədəd səhmə 100% təşkil edəcəkdir. Mövcud səhmdar tərəfindən üstünlük hüququ istifadə edilmədiyi təqdirdə mövcud səhmdarın emitentdə iştirak payı 50% olacaqdır.

**5.7. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergilər.** Ödəmə mənbəyində dividenddən vergi tutulması AR Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmçinin AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən

dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**Səhm alıcısının ödəməli olduğu xərclərin məbləği-**

- əqdin məbləğinin 0,05% (min. 0,5 və maks. 500 manat) həcmində BFB komissiyası;
- "depo" hesab açılışı üçün 5 manat;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**5.8. Səhmlərin yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi):**

"CPM-İnvest İnvestisiya Şirkət" Açıq Səhmdar Cəmiyyəti anderrayter təyin edilmişdir.
Hüquqi/faktiki ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, ev 102A, m "City Point Baku", AZ1022.

Telefon: +994 12 460 70 00;

E-mail: info@cpminvest.az

İnternet səhifəsi: https://cpminvest.az/

VÖEN: 1405409161

Lisenziya: müddətsizdir

14 noyabr 2022-ci il tarixli, İŞ-07 nömrəli lisenziya Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmişdir.

**5.9. Səhmlərin təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri:**

Təklifin şərtlərinin təsviri - Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri "CPM-İnvest İnvestisiya Şirkəti" QSC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya səhmdarlar üstünlük hüququndan istifadə ilə əlaqədar münasibət bildirdikdən sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 iş günündən çox olmayacaqdır. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir.Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasındasəhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişi anderraytera təqdim etməklə həyata keçirilir.

**5.10. Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd:** Abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edir, emissiya şərtlərini onlara izah edir və sifarişlərin verilməsi barədə məlumat verir.

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

## 6.EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| 2023 | “Caspian Consulting and Partners” Məhdud Məsuliyətli Cəmiyyəti | Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 102A, City Point Baku | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| 2022 | “Caspian Consulting and Partners” Məhdud Məsuliyətli Cəmiyyəti | Bakı şəhəri, Zərifə Əliyeva 93, BEGOC Biznes Mərkəzi, 6-cı mərtəbə, AZ1000 | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| 2021 | “Caspian Consulting and Partners” Məhdud Məsuliyətli Cəmiyyəti | Bakı şəhəri, Zərifə Əliyeva 93, BEGOC Biznes Mərkəzi, 6-cı mərtəbə, AZ1000 | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |

**6.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Dəyişiklik yoxdur.

## 7.SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq**

**dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər | 2023 Audit olunmuş (Manatla) | 2022 Audit olunmuş (Manatla) | 2021 Audit olunmuş (Manatla) |
|---|---|---|---|
| Xalis mənfəət | 1.642.183 | 1.260.701 | 410.268 |
| Cəmi öhdəliklər | 462.427 | 15.100.297 | 1.322.367 |
| Cəmi kapital | 2.442.183 | 1.980.701 | 810.268 |
| Cəmi aktivlər | 2.904.610 | 17.080.997 | 2.132.635 |
| Pul vəsaitləri | 200.022 | 39.676 | 960.337 |

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti

**8.2. Emitentin qısaldılmış adı:** "CPM-İnvest İnvestisiya Şirkəti" ASC

**8.3. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN 1405409161, 27.01.2021

**8.4. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitent 27 yanvar 2021-ci il tarixində dövlət qeydiyyatına alınmışdır (VÖEN: 1405409161) və 15 aprel 2021-ci il tarixli, İŞ-07 saylı müddətsiz lisenziya ilə fəaliyyət göstərmişdir. 12 oktyabr 2022-ci il tarixində "CPM-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə etmişdir. 12 oktyabr 2022-ci il tarixində Cəmiyyət yenidən təşkilin çevrilmə formasında təşkilati hüquqi formasını dəyişərək Qapalı Səhmdar Cəmiyyətindən Açıq Səhmdar Cəmiyyətinə çevrilmişdir. Emitent 14 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müddətsiz olaraq verilmiş İŞ-07 saylı lisenziya əsasında fəaliyyət göstərir.

**8.5. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**
Hüquqi/Faktiki ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, ev 102A, m. "City Point Baku", AZ1022
Elektron poçt ünvanı: info@cpminvest.az
İnternet səhifəsi: https://cpminvest.az/
Əlaqə telefonları: +994 12 460 70 00

**8.6. Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə):**
2021-ci ilin sonuna qiymətli kağızların alınmasına: 696.178 azn
2022-ci ilin sonuna qiymətli kağızların alınmasına: 1.948.034 azn
2023-cü ilin sonuna qiymətli kağızların alınmasına: 2.193.190 azn

**8.7. Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici):**

| Adı | Məbləği | Coğrafi bölüşdürülməsi | Maliyyələşdirmə üsulu | Növü |
|---|---|---|---|---|
| Kooperativ qiymətli kağızlar | 206,235.50 | Daxili | Daxili | İstiqraz |
| Maliyyə Nazirliyinin qiymətli kağızları | 2,187,010.28 | Daxili | Daxili | Istiqraz |

**8.8. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri:** Mövcud deyil.

**9. EMİTENTİN BİZNESİNİN İCMALI**

**9.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:** Emitentin hər bir maliyyə ili üzrə əsas fəaliyyət istiqaməti investisiya fəaliyyətidir. Cəmiyyətin əsas investisiya xidmətlərinə qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi, fərdi investorların portfelinin idarə edilməsi, investisiya məsləhətlərinin verilməsi, qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi, qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi, mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatların aparılması, marja ticarəti aiddir. Cəmiyyətin yardımçı investisiya xidmətlərinə müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi, investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi, qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması, təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi, əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi aiddir. Cəmiyyət Nizamnaməsində və İnvestisiya Şirkətlərinin fəaliyyətinə barədə qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

| Göstərilən xidmətlərin adı | 2023 (manatla) | 2022 (manatla) | 2021 (manatla) |
|---|---|---|---|
| İnvestisiya xidmətləri və ticarət əməliyyatları üzrə gəlirlər | 3.291.443 | 2.281.127 | 1.022.511 |
| Faiz (kupon) gəlirləri | 262.018 | 151.380 | - |
| Digər gəlirlər | 985 | 7.000 | 3.635 |

| | | | |
|---|---|---|---|
| Cəmi gəlirlər | 3.554.456 | 2.439.507 | 1.026.146 |

**9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Mövcud deyil.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:** Emitentin müstəsna fəaliyyət istiqaməti investisiya şirkəti fəaliyyətidir. Emitentin ümumi gəlirləri üzrə əsas fəaliyyət yeri Azərbaycan Respublikası ərazisində həyata keçirilir. Emitentin ümumi gəliri aşağıdakı qaydada formalaşmışdır:

2021-ci il üzrə gəlir – 1.026.146 manat;

2022-ci il üzrə gəlir – 2.439.507 manat;

2023-cü il üzrə gəlir – 3.554.456 manat.

**9.4. Emitentin Biznes İcmalının 9.1-9.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:** Manatın məzənnəsinin stabil olması, Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması.

**9.5. Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:** "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Emitentin patentdən, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı mövcud deyildir.

**9.6. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:** Emitentin rəqabət mövqeyinə dair bəyanat mövcud deyil.

## 10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**10.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**
Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir.
- "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB) – üzv
- Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM)- üzv

**10.2. Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer:** Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ

**11.1 Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:**

Emitentin icarəyə verilmiş və əldə olunması nəzərdə tutulan əsas vəsaiti yoxdur. Emitentin mövcud olan əsas vəsaitləri barədə məlumat 2023-cü ilin audit olunmuş maliyyə hesabatlarında verilmişdir. "CPM-İnvest İnvestisya Şirkəti" ASC-nin 2023-cü ilin sonuna əsas vəsaitlərin balans dəyərinin cəmi 284.797 manat təşkil edir.

| № | Mövcud olan əsas vəsaitlər | Balans dəyəri (manatla) |
|---|---|---|
| 1 | Mebel, kompyuter və texniki avadanlıqlar | 15.804 |
| 2 | Nəqliyyat vasitələri | 233.293 |
| 3 | Qeyri-maddi aktivlər | 35700 |
| | **Cəmi məbləği** | **284797** |

**11.2 Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik) bağlı olan amillərin təsviri:** Ətraf mühitlə bağlı neqativ hallar mövcud deyil.

## 12. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI

**12.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:**

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2023-cü il (Audit olunmuş)** | **31 dekabr 2022-ci il (Audit olunmuş)** | **31 dekabr 2021-ci il (Audit olunmuş)** |
|---|---|---|---|
| Gəlirlər | 3.554.457 | 2.439.507 | 1.026.146 |
| **Ümumi gəlirlər** | **3.554.457** | **2.439.507** | **1.026.146** |
| İnzibati və digər əməliyyat xərcləri | (1.501.728) | (863.631) | (484.682) |
| **Əməliyyat mənfəəti** | **2.052.729** | **1.575.876** | **542.928** |
| **İl üzrə mənfəət (zərər)** | **2.052.729** | **1.575.876** | **542.928** |
| İl üzrə mənfəət vergisi | (410.546) | (315.175) | (108.293) |
| Təsnifatlaşdırma | - | - | (22.903) |
| **İl üzrə cəmi xalis mənfəət (zərər)** | **1.642.183** | **1.260.701** | **410.268** |

**12.2. Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat:** Mövcud deyil.

**12.3. Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:** Ölkədəki ÜDM-in azalması tempinin səngiməsi və real iqtisadiyyatın canlanması müşahidə edilməkdədir. Azərbaycan manatının və eləcə də ticarət partnyorlarının məzənnədəki korreksiyalar nəticəsində

ölkədə inflyasiya idxalı qiymətlərin artımına səbəb olmuşdur. Bununla belə, istehsal olunan mal və göstərilən xidmətlərin dünya bazarında rəqabətliliyi artmış, ölkənin ixrac potensialının artımı yönündə struktural islahatlar aparılmışdır. Bunlar Emitentin iqtisadiyyatda aracılığını artırmış və gəlirlərinə müsbət təsir etmişdir. Dövlət istiqrazları üzrə faizlərin artması həmçinin səhm və istiqraz emissiyalarının artmasına maraq yaranması gəlirlərin artmasına müsbət təsirini göstərir. Emitentin göstərdiyi hər bir xidmət qiymətli kağızlarla bağlı əməliyyatlardır və aşağıdakı risklər emitentin gəlirlərinə təsir edən amillərdir.

- Valyuta riski – valyuta məzənnəsinin kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).

**12.4. Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri:**

Seçilmiş maliyyə məlumatlarından göründüyü kimi, Emitentin mənfəəti son üç il ərzində 1.642.183,00 manata qədər yüksəlmişdir. Bundan əlavə olaraq qeyd edilməlidir ki, emitentin cəmi aktivləri (öhdəlikləri) 2021-ci ilin sonu ilə müqayisədə 771.975,00 manata qədər artmışdır. Emitentin cəmi uzunmüddətli aktivləri 2023-cü ilinin sonuna 284.797,00 manat, cari aktivləri isə 2.619.812,00 manat kimi müəyyən olunmuşdur. Həmçinin qeyd edilməlidir ki, emitentin öhdəlikləri 2023-cü ilin sonuna 462.427,00 manata çatmışdır. “CPM-İnvest İnvestisiya Şirkəti” ASC-nin əsas fəaliyyətinin investisiya xidmətləri üzrə olduğunu nəzərə alaraq, xalis satışlarda və gəlirdə baş verən dəyişikliklər ölkəmizdə mövcud olan iqtisadi vəziyyət və bu xidmətlərə dair tələbə uyğun olaraq dəyişir

**12.5. İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat:**

Cəmiyyət qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətləri üzrə fəaliyyəti göstərir. Cəmiyyətin əsas fəaliyyətinin investisiya xidmətləri üzrə olduğunu nəzərə alaraq, bu sahədə Cəmiyyətə təsir edən tendensiyalar ölkəmizdə mövcud olan iqtisadi vəziyyətə uyğun olaraq dəyişir. Son dövrlər investisiya xidmətləri üzrə banklara məhdud lisenziyanın verilməsi Cəmiyyətin xidmət sahəsinin daralmasına təsir edəcəkdir. Ötən dövr ərzində ölkəmizin iqtisadiyyatında baş verən dalğalanmalar Cəmiyyətə öz müsbət və mənfi təsirini göstərir belə ki, repo faiz indekslərinin artması ticarət dövriyyəsindən əldə olunan gəlir marjasının azalmasına səbəb olub. Buna baxmayaraq Cəmiyyət digər xidmət sahələrini və müştəri bazasını genişləndirərək, rəqabət mühitinə uyğunlaşaraq bazarda mövqeyini möhkəmləndirməyi bacarır.

Cəmiyyətin fəaliyyətinə əsas təsir edəcək amillərə nəzər salsaq görərik ki, əsas təsir edən amillər uçot faiz dərəcəsi, infilyasiya faizi, rəqib maliyyə alətləri üzrə gəlirlilik dərəcəsi (məs: Bank depoziti və İstiqraz ). Ötən ildən etibarən kütləvi təklif edilən istiqrazlar üzrə vergi güzəşti son dövrlər şirkətlərin möhkəmlənməsinə və xidmət dairəsinin genişlənməsinə öz müsbət təsirini göstərmişdir. Bu dövrdə qiymət və məzənnə siyasəti liberallaşdırılmış, geniş miqyaslı özəlləşdirmə proqramı həyata keçirilmiş və bütövlükdə sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit, makroiqtisadi sabitlik və ölkənin yüksək investisiya cəlbediciliyi təmin edilmişdir

## 13. EMİTENTİN KAPİTAL RESURSLARI

**13.1. Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli):**
Emitentin yeganə səhmdarı tərəfindən uzun müddətli kapital qoyuluşu edilməklə nizamnamə kapitalında səhmlərin sayının artırılması yolu ilə 400.000,00 manat məbləğində artırılmışdır; qısa müddətli kapital qoyuluşu baş verməmişdir.

**13.2. Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:** Emitentin 2023-cü ilin sonuna cari hesabda 200.022 manat pul qalığı mövcud idi; Pul vəsaitləri xidmətlərin göstərilməsindən əldə olunan vəsaitlərdir.

**<u>Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat</u>**

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2023-cü il (audit olunmuş)** |
|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| İnvestisiya xidmətlərinin göstərilməsindən daxilolmalar | 272 441 |
| Digər əməliyyat gəlirlərindən daxilolmalar | 2 993 453 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | **3 265 894** |
| Göstərilmiş xidmətlərə görə xaricolmalar | (237.214) |
| Royalti, haqq və kommissiya xərcləri üzrə xaricolmalar | (221.082) |
| İşçilərə edilmiş ödənişlər üzrə xaricolmalar | (125.983) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | (200.000) |
| Digər vergilərə görə xaricolmalar | (290.836) |
| Əməliyyat fəaliyyəti ilə bağlı digər ödənişlərə görə xaricolmalar | (905.883) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | **(1.980.998)** |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **1.284.896** |
| **investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| Faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | 262.018 |
| **İnvestisiya fəaliyyətindən cəmi daxilolmalar** | **262.018** |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (114.801) |
| **İnvestisiya fəaliyyətindən cəmi xaricolmalar** | (114.801) |

| | |
|---|---|
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **147.217** |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| qiymətli kağızların buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | |
| qısa və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi daxilolmalar** | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | (400.000) |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | (780.701) |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | (91.066) |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi xaricolmalar** | **(1.271.767)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **(1.271.767)** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNİN ARTMASI (AZALMASI)** | **160.346** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **39.676** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **200.022** |

**13.3. Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:** Hal-hazırda emitentin borclanma ehtiyacları mövcud deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tutulan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər. Emitentin Nizamnamə kapitalı və 31 avqust 2021-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 23/1 nömrəli qərarına əsasən təsdiq edilmiş "İnvestisiya şirkətləri tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası"nda nəzərdə tutulmuş fəaliyyətlər nəticəsində əldə olunan bütün gəlirlər emitentin maliyyələşmə strukturunu təşkil edir.

**13.4. Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:** Mövcud deyil.

**13.5. Bu Emissiya Prospektinin 8.8-ci və 11.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat:** Bu Emissiya Prospektinin 8.8-ci və 11.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbəyi qismində emitentin fəaliyyəti nəticəsində əldə olunan bütün gəlirlər çıxış edir.

## 14. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR

**14.1. Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat:** Son üç

maliyyə ili ərzində emitentin hesabına tədqiqat aparılmamış və inkişaf fəaliyyəti mövcud olmamışdır. Emitentin 14 noyabr 2022-ci il tarixli, İŞ-07 nömrəli müddətsiz lisenziyası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmişdir.

## 15. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

15.1. **Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar:** Cəmiyyət qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətləri üzrə fəaliyyəti göstərir. Cəmiyyətin əsas fəaliyyətinin investisiya xidmətləri üzrə olduğunu nəzərə alaraq, bu sahədə Cəmiyyətə təsir edən tendensiyalar ölkəmizdə mövcud olan iqtisadi vəziyyətə uyğun olaraq dəyişir. Son dövrlər investisiya xidmətləri üzrə banklara məhdud lisenziyanın verilməsi Cəmiyyətin xidmət sahəsinin daralmasına təsir edəcəkdir. Ötən dövr ərzində ölkəmizin iqtisadiyyatında baş verən dalğalanmalar Cəmiyyətə öz müsbət və mənfi təsirini göstərir belə ki, repo faiz indekslərinin artması ticarət dövriyyəsindən əldə olunan gəlir marjasının azalmasına səbəb olub. Buna baxmayaraq Cəmiyyət digər xidmət sahələrini və müştəri bazasını genişləndirərək, rəqabət mühitinə uyğunlaşaraq bazarda mövqeyini möhkəmləndirməyi bacarır. “CPM-İnvest İnvestisiya Şirkəti” ASC yerli bazarda göstərilən investisiya xidmətləri üzrə 2022-ci ildə 1.260.701 manat, 2023 cü ildə 1.642.183 manat xalis mənfəət qazanmışdır**.** Emitentin son 3 illik maliyyə hesabatlarına əsasən gəliri formalaşdıran xidmətlərin 75%-i ticarət əməliyyatları, 15%-i müştəri sifarişlərindən əldə olunan gəlir, 10% isə faiz (kupon) gəlirləri hesabına olmuşdur.

15.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitent cari ildə mənfəətliyini artırmaq üçün yeni partnyorlarla əməkdaşlıq tendensiyasını davam edir. Ölkədə Qiymətli kağızlar bazarında islahatların həyata keçirilməsi qeyri-müəyyənliklərin aradan qaldırılmasına şərait yaradıb və sadalananlar Emitentin cari il ərzində ümumi gəlirlərinin artmasına təsir etmə ehtimalı olan hallardır. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir. Emitentin cari fəaliyyətinə təsir edən hadisələr olmamışdır.

## 16. GƏLİR PROQNOZU: Gəlir proqnozu mövcud deyil.

## 17. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**17.1. Emitent 5 ildən az müddətdə mövcud olduğu təqdirdə, hər birinin soyadı, adı, atasının adı və tutduğu vəzifələr göstərilməklə onun təsisçilərə haqqında məlumat:**

| **Adı, soyadı, atasının adı** | **Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə** | **Təhsili barədə məlumat** | **Nizamnamə Kapitalında payı və ya emitentin opsionu** | **Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat** |
|---|---|---|---|---|
| Məmmədova Kəmalə Qələndər qızı | Yoxdur | Bakalavr: Azərbaycan Dövlət İqtisad İnstitutu – Ticarətin və ictimai iaşənin iqtisadiyyatı və idarə edilməsi ixtisası | 100 % | Yoxdur |

**17.2. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**

Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının sayı 1-dir.

**İcraçı Direktor barədə məlumat:**

| **Adı, soyadı, atasının adı** | **Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə** | **Təhsili barədə məlumat** | **Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat** | **Emitentin nizamnamə kapitalında payı və ya emitentin səhmlərinə olan opsionları** |
|---|---|---|---|---|
| Hadiyev Nəriman Sabir oğlu | İcraçı Direktor<br><br>02.09.2019 - “Azər-Türk Bank” ASC Xəzinədarlıq Departamentinin Direktor Müavini<br><br>16.06.2021/30.06.2021 - “Azər-Türk Bank” ASC Xəzinədarlıq Mərkəzinin Direktor Müavini<br><br>19.04.2021/bugünədək- “CPM- İnvest İnvestisya Şirkəti” ASC İcraçı Direktor | Bakalavr – Azərbaycan Universiteti Cinayət hüququ və cinayət prosesi<br><br>Magistr – Azərbaycan Dövlət İqtisad Universiteti İqtisadiyyat | yoxdur | yoxdur |

## Audit komitəsi barədə məlumat:

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili barədə məlumat | Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|
| Səfərov Toğrul İlyas oğlu | Audit Komitəsinin Sədri<br><br>01.05.2023/bugünədək – “İmport Group of Azerbaijan” MMC-nin Direktoru<br>01.05.2018 – 16.07.2020 “Fayton LTD” MMC satışın təşkili şöbəsinin müdiri | Azərbaycan Xalq Təsərrüfatı İnstitut İqtisadçı | yoxdur | yoxdur |
| Bağırov Qədir Nadir oğlu | Üzv<br><br>2018/bugünədək- Socar Metanol Zavodu Risklər üzrə menecer | Azərbaycan Dövlət İqtisad Universiteti İqtisadiyyatın hüquqi tənzimlənməsi | yoxdur | yoxdur |
| Əliyeva Kəmalə Əhmədağa qızı | Üzv<br><br>17.05.2022-01.02.2024 – “CPM-İnvest İnvestisya Şirkəti” ASC-nin Daxili Auditoru | Azərbaycan İqtisad Universiteti Maliyyə | yoxdur | yoxdur |

## Müşahidə Şurası barədə məlumat:

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili barədə məlumat | Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|
| İsmayılov Xəyal Vahid oğlu | Müşahidə Şurasının Sədri<br><br>01.07.2023/bugünədək – “Smart Technologies Company” MMC İcraçı Direktor<br>22.10.2021 – 03.06.2022 “Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri” PHŞ-nin 3 saylı ərazi idarəsinin İdarə rəisi<br>01.07.2014 – 10.09.2020 “Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilati” MMC-nin Direktoru | Bakalavr - Azərbaycan Dövlət İqtisad Universiteti Maliyyə və kredit<br><br>Magistr – Bakı Dövlət Univestiteti Beynəlxalq münasibətlər | yoxdur | yoxdur |
| Hüseynov Xəqani Vaqif oğlu | Müşahidə Şurasının Üzvü | Mingəçevir Dövlət Universiteti Informatika və | yoxdur | yoxdur |

| | | | | |
|---|---|---|---|---|
| | 09.03.2016 – 30.11.2020 “Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı” MMC Biznesin krediti şöbəsinin şöbə rəisi | Hesablama texnikası | | |
| Səfərov Toğrul İlyas oğlu | Müşahidə Şurasının Üzvü<br><br>01.05.2023/bugünədək – “İmport Group of Azerbaijan” MMC-nin Direktoru<br>01.05.2018 – 16.07.2020 “Fayton LTD” MMC satışın təşkili şöbəsinin müdiri | Azərbaycan Xalq Təsərrüfatı İnstitut İqtisadçı | yoxdur | yoxdur |
| Abdullayev Eldar Faiq oğlu | Müşahidə Şurasının Sədrinin Müşaviri<br><br>28.01.2019 – 30.12.2023 – “Bakı Fond Birjası” QSC İdarə heyətinin sədri vəzifəsini müvəqqəti icra edən | Bakalavr-Azərbaycan Dövlət İqtisad İnstitutu İstehsalın iqtisadiyyatı və idarə edilməsi<br><br>Magistr-Azərbaycan Dövlət Neft Akademiyası İstehsalat və xidmət sahələrində menecment | yoxdur | yoxdur |

**17.3. Bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat:** Qohumluq əlaqələri mövcud deyil.

**17.4. Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat:** Emitentin təsisçisi, idarəetmə və nəzarət orqanlarının son beş il ərzində vəzifə saxtakarlığı ilə bağlı məhkumluğu olmamışdır.

**17.5. Şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat:** Mövcud deyil

**17.6. Şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat:** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 18.EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI

**18.1. Emissiya Prospektinin 17.2-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər:** Mövcud deyil.

**18.2. Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:** Mövcud deyil.

## 19. İCRA ORQANININ İŞGÜZAR PRAKTİKASI

**19.1. Maliyyə ilinin nəticələrinə əsasən Emissiya Prospektinin 17.2-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:**

19.1.1. cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi:

**<u>İcraçı direktorun səlahiyyət müddəti</u>**

| Adı,soyadı, atasının adı | Vəzifəsi | Səhmdarlarının Ümumi Yığıncağının qərarının tarixi, protokolun nömrəsi | İcraçı direktorun səlahiyyət müddətinin başlama tarixi | İcraçı direktorun səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|
| Hadiyev Nəriman Sabir oğlu | İcraçı direktor | 02.11.2020<br>01 nömrəli qərar | 19.04.2021-ci il<br>Əsas: MB-nin 16-00577-2021 saylı, 10.03.2021-ci il tarixli məktubu | Müddətsiz |

**<u>Audit Komitəsinin sədrinin/üzvlərinin səlahiyyət müddətləri</u>**

| Adı,soyadı, atasının adı | Vəzifəsi | MŞ qərarının tarixi, protokolun nömrəsi | Audit Komitəsi üzvlərinin/sədrinin səlahiyyət müddətinin başlama tarixi | Audit Komitəsi üzvlərinin/sədrinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|
| Səfərov Toğrul İlyas oğlu | Audit Komitəsinin Sədri | 29.06.2022<br>14/22 saylı protokol | 29.06.2022 | 29.06.2025 |
| Bağırov Qədir Nadir oğlu | Audit Komitəsinin üzvü | 29.06.2022<br>14/22 saylı protokol | 29.06.2022 | 29.06.2025 |
| Əliyeva Kəmalə Əhmədağa | Audit Komitəsinin üzvü | 29.06.2022<br>14/22 saylı protokol | 29.06.2022 | 29.06.2025 |

**<u>Müşahidə Şurası sədrinin/üzvlərinin/müşavirinin səlahiyyət müddətləri</u>**

| Müşahidə Şurası üzvlərinin/ | Vəzifəsi | Qərarının tarixi, protokolun nömrəsi və | Müşahidə Şurası sədrinin/üzvlərinin/ müşavirinin səlahiyyət | Müşahidə Şurası sədrinin/üzvlərinin /müşavirinin səlahiyyət |
|---|---|---|---|---|

| sədrinin/müşavirinin soyadı, adı, atasının adı | | Əmrin tarixi, nömrəsi | müddətinin başlama tarixi | müddətinin bitmə tarixi |
|---|---|---|---|---|
| İsmayılov Xəyal Vahid oğlu | Müşahidə Şurasının Sədri | Ümumi Yığıncağın 01.02.2023-cü il tarixli, 04/23 nömrəli Protokolu | 01.02.2023 | 01.02.2026 |
| Hüseynov Xəqani Vaqif oğlu | Müşahidə Şurasının üzvü | Ümumi Yığıncağın 01.02.2023-cü il tarixli, 04/23 nömrəli Protokolu | 01.02.2023 | 01.02.2026 |
| Səfərov Toğrul İlyas oğlu | Müşahidə Şurasının üzvü | Ümumi Yığıncağın 01.02.2023-cü il tarixli, 04/23 nömrəli Protokolu | 01.02.2023 | 01.02.2026 |
| Abdullayev Eldar Faiq oğlu | Müşahidə Şurasının Sədrinin Müşaviri | 01.02.2024-cü il tarixli, 03/24 nömrəli Əmr | 01.02.2024 | 01.05.2024 |

19.1.2. **səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat:** Mövcud deyil

**19.2. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Audit Komitəsinin üzvləri barədə məlumat bu Emissiya Prospektinin 17.2-ci bəndində əks olunmuşdur. Mükafatlandırma komitəsi mövcud deyil.

**Audit Komitəsinin gördüyü işlər:**

- Cəmiyyətin audit siyasətini və strategiyasını müəyyən etmək;
- Daxili Audit Xidmətinin fəaliyyətinə nəzarəti həyata keçirmək. Daxili Audit Xidmətinin iş planı ilə Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin bütün əhəmiyyətli sahələrinin auditinin keçirilməsini təmin etmək, iş planını təsdiq etmək və icrasına nəzarəti həyata keçirmək;
- Daxili audit planlarını, habelə daxili auditorların vəzifə bölgüsünü təsdiq etmək;
- Daxili audit siyasətini və strategiyasının həyata keçirilməsini təmin etmək;
- Audit fəaliyyətinin həyata keçirilməsi üçün lazımi şərait yaratmaq;
- Daxili audit xidmətinin hesabatında verilmiş məqsədəuyğun təkliflərin həyata keçirilməsi ilə bağlı qərarlar qəbul etmək;

- Risklərin idarə edilməsi sisteminin tətbiqi və effektivliyinin qiymətləndirilməsi;
- Fəaliyyətinin və daxili nəzarət mexanizmlərinin qiymətləndirilməsinin həyata keçirilməsi;
- Həyata keçirilmiş qiymətləndirmə üzrə tövsiyələrin verilməsi və onların icrasına nəzarətin təmin olunması;
- Daxili audit departamenti tərəfindən cari iş planı üzrə aparılmış yoxlamaların nəticələri üzrə "Auditlə aşkarlanmış çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması üzrə Daxili Audit Xidməti Tövsiyələri və Təklifləri", habelə Daxili Audit Xidməti ilə razılaşdırılmış "Auditlə aşkarlanmış çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması üzrə Tədbirlər Planı"na qoşulmuş hesabları Audit Komitəsinin iclaslarında müzakirə etmək, razılaşdırmaq və Müşahidə Şurasının İclasına təqdim etmək;
- Cəmiyyətin fəaliyyətinə və əməkdaşlara aid olan hər hansı məlumatlar üzrə müvafiq strukturlara sorğular vermək və bu kimi sorğuların tam həcmdə və göstərilmiş müddətdə icrasını tələb etmək.

**19.3. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:** 08 fevral 2024-cü il tarixində təsdiqlənmiş İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartları qəbul edildiyi tarixdən bir il sonra qüvvəyə minəcək. Hazırda Cəmiyyətin fəaliyyət istiqaməti bu standartlara qismən uyğundur, qeyd olunan bu dövr ərzində göstərilən Standarta tam olaraq uyğunlaşdırılacaqdır.

## 20. EMİTENTİN İŞÇİ HEYƏTİ

**20.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı:** Emitentin müvəqqəti işçiləri yoxdur.

**Daimi işçilər barədə məlumat:**

- 2022-ci ilin sonuna – 10 əməkdaş
- 2023-cü ilin sonuna – 10 əməkdaş
- 15.02.2024-cü il tarixinə – 11 əməkdaş

**20.2. İşçilərin emitentin nizamnamə kapitalında iştirakı:** Mövcud deyil.

**20.3. Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat:** Mövcud deyil

## 21. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR

**21.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarların payı aşağıdakı kimidir:

| Soyad, ad, ata adı | Adi səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti | Vətəndaşlıq |
|---|---|---|---|
| Məmmədova Kəmalə Qələndər qızı | 400 | 100% | Azərbaycan Respublikası |

21.2. **Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat:** Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə “bir səsli səhm - bir səsdir” prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir. Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı altmış faizinin sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

21.3. **Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyətləri və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi Emitentə nəzarəti emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edəbilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60% (altmış faiz) paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Emitentin idarə olunmasına və işinə nəzarəti səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Direktor həyata keçirir

21.4. **Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat mövcud deyil.

## 22. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR

22.1. **Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə aşağıdakı məlumat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat:** “Caspian Consulting and Partners” MMC tərəfindən bu barədə audit rəyi hazırlanmışdır. Audit rəyinə uyğun olaraq, investisiya xidmətlərinin göstərilməsinə dair müqavilə və müqavilə əsasında icra olunacaq əqdlər üzrə müəyyən olunmuş şərtlər Azərbaycan respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq bütün əhəmiyyətli aspektlərdən ədalətli əks etdirilmişdir.

## 23. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

### 23.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

**Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat**

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2023-cü il (Audit olunmuş)** | **31 dekabr 2022-ci il (Audit olunmuş)** | **31 dekabr 2021-ci il (Audit olunmuş)** |
|---|---|---|---|
| Gəlirlər | 3.554.457 | 2.439.507 | 1.026.146 |
| **Ümumi gəlirlər** | **3.554.457** | **2.439.507** | **1.026.146** |
| İnzibati və digər əməliyyat xərcləri | (1.501.728) | (863.631) | (484.682) |
| **Əməliyyat mənfəəti** | **2.052.729** | **1.575.876** | **542.928** |
| **İl üzrə mənfəət (zərər)** | **2.052.729** | **1.575.876** | **542.928** |
| İl üzrə Mənfəət vergisi | (410.546) | (315.175) | (108.293) |
| Təsnifatlaşdırma | **-** | - | (22.903) |
| **İl üzrə xalis mənfəət (zərər)** | **1.642.183** | **1.260.701** | **410.268** |

**Maliyyə Vəziyyəti Haqqında Hesabat**

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2023-cü il (audit olunmuş)** | **31 dekabr 2022-ci il (Audit olunmuş)** | **31 dekabr 2021-ci il (Audit olunmuş)** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 249.097 | 186.479 | 231.245 |
| Qeyri-maddi aktivlər | 35.700 | 43.350 | 51.000 |
| **Cəmi uzunmüddətli aktivlər** | **284.797** | **229.829** | **282.245** |
| **Cari aktivlər** | | | |
| Uzunmüddətli maliyyə aktivləri | 2.023.190 | 6.532.624 | 696.177 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 200.022 | 39.676 | 960.337 |
| Yüklü maliyyə aktivləri | 200.056 | 10.209.241 | 185.032 |
| Debitor borclar | 26.545 | 17.519 | 8.643 |
| Digər aktivlər | 170.000 | 52.109 | 200 |
| **Cəmi cari aktivlər** | **2.619.812** | **16.851.168** | **1.850.389** |
| **Cəmi aktivlər** | **2.904.610** | **17.080.997** | **2.132.634** |
| **Kapital və Öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 400.000 | 400.000 | 400.000 |
| Əlavə kapital qoyuluşu | 400.000 | 800.000 | |
| Bölüşdürülməmiş mənfəət (yığılmış zərər) | 1.642.183 | 780.701 | 410.268 |

| | | | |
|---|---|---|---|
| **Cəmi kapital** | **2.442.183** | **1.980.701** | **810.268** |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Uzunmüddətli borc öhdəlikləri | | 0 | 960.000 |
| Yüklü öhdəliklər | 200.056 | 14.834.330 | |
| Digər öhdəliklər | 262.371 | 265.967 | 362.367 |
| **Cəmi cari öhdəliklər** | **462.427** | **15.100.297** | **1.322.367** |
| | | | |
| **Cəmi öhdəliklər** | **462.427** | **15.100.297** | **1.322.367** |
| **Cəmi kapital və öhdəliklər** | **2.904.610** | **17.080.997** | **2.132.634** |

## Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2023-cü il (audit olunmuş)** | **31 dekabr 2022-ci il (audit olunmuş)** | **31 dekabr 2021-ci il (audit olunmuş)** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| İnvestisiya xidmətlərinin göstərilməsindən daxilolmalar | 272 441 | 1.989.229 | 1.018.276 |
| Royalti, haqq və kommisiya gəlirləri üzrə daxilolmalar | | 281.435 | |
| Digər əməliyyat gəlirlərindən daxilolmalar | 2 993 453 | 151.380 | 4.862 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | **3 265 894** | **2.422.044** | **1.023.138** |
| Göstərilmiş xidmətlərə görə xaricolmalar | (237.214) | (130.836) | |
| Royalti, haqq və kommissiya xərcləri üzrə xaricolmalar | (221.082) | (330.773) | (165.338) |
| İşçilərə edilmiş ödənişlər üzrə xaricolmalar | (125.983) | (125.108) | (52.789) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | (200.000) | (75.350) | |
| Digər vergilərə görə xaricolmalar | (290.836) | | |
| Əməliyyat fəaliyyəti ilə bağlı digər ödənişlərə görə xaricolmalar | **(905.883)** | (335.841) | (270.487) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | **(1.980.998)** | **(997.907)** | **488.615** |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **1.284.896** | **1.424.137** | **534.523** |
| **investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | (8.930) | (294.186) |
| Törəmə və asılı müəssisələrdə pay və ya borc alətlərinin, birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |
| Törəmə maliyyə alətləri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | 262.018 | | |

| | | | |
|---|---|---|---|
| **İnvestisiya fəaliyyətindən cəmi daxilolmalar** | **262.018** | **(8.930)** | **(294.186)** |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (114.801) | | |
| Törəmə maliyyə alətləri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |
| **İnvestisiya fəaliyyətindən cəmi xaricolmalar** | (114.801) | | |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **147.217** | **(8.930)** | **(294.186)** |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| qiymətli kağızların buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| qısa və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | 960.000 |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi daxilolmalar** | | | |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | 960.000 |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | (1.360.000) | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | (400.000) | | (240.000) |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | (780.701) | (890.268) | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | (91.066) | (85.600) | |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi xaricolmalar** | **(1.271.767)** | **(2.335.868)** | **(240.000)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN XALİS HƏRƏKƏTİ** | **(1.271.767)** | **(2.335.868)** | **720.000** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNİN ARTMASI (AZALMASI)** | **160.346** | **(920.661)** | **960.337** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **39.676** | **960.337** | **0** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **200.022** | **39.676** | **960.337** |

## Kapitalda Dəyişikliklər haqqında Hesabat

| *Azərbaycan manatı ilə* | **Nizamnamə Kapitalı** | **Əlavə kapital qoyuluşu** | **Bölüşdürülməmiş mənfəət (Yığılmış zərər)** | **Cəmi Kapital** |
|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | **400.000** | | **410.268** | **810.268** |
| Nizamnamə kapitalının artımı | | 1.200.000 | | 1.200.000 |
| Təsnifatlaşdırma | | (400.000) | | (400.000) |
| Dividendlərin ödənilməsi 2021 | | | (410.268) | (410.268) |
| Dividendlərin ödənilməsi 2022 (avans) | | | (480.000) | (480.000) |

| | | | | |
|---|---|---|---|---|
| 2022-ci il üzrə cəmi mənfəət (zərər) | | | 1.260.701 | 1.260.701 |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **400.000** | **800.000** | **780.701** | **1.980.701** |
| Nizamnamə kapitalının artımı | | (400.000) | | (400.000) |
| Təsnifatlaşdırma | | | | |
| Dividendlərin ödənilməsi 2022 | | | (780.701) | (780.701) |
| 2023-cü il üzrə cəmi mənfəət (zərər) | | | 1.642.183 | |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **400.000** | **400.000** | **1.642.183** | **2.442.183** |

**23.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent bir ildən artıq müddətdə fəaliyyət göstərir.

**23.3. Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:** Emitent 2021-ci ildən fəaliyyət göstərir. Maliyyə hesabatları əlavə edilmişdir.

**23.4. Maliyyə hesabatları MHBS-yə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

Emitent maliyyə hesabatlarını MHBS-yə uyğun hazırlayır.

**23.5. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**

Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyildir.

**23.6. Aralıq və digər maliyyə məlumatları:** Mövcud deyil.

**23.7. Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir;**

Emitentin 2023-cü il üzrə maliyyə hesabatları audit edilmişdir. Son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları dərc edilməmişdir.

**23.8. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospekti audit olunmuş maliyyə hesabatlarından 2 ay sonra tərtib edilmişdir. Son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları dərc edilməmişdir.

**23.9. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat:** 2021-ci ilin yekununa görə hər səhm üçün 1025.67 manat məbləğində dividend ödənilmişdir. Səhmlərin ümumi sayı 400 ədəd, 2022-ci ilin yekununa görə hər səhm üçün 3151.75 manat məbləğində dividend ödənilmişdir.

Emitentin 400 ədəd səhmi mövcuddur. 2023-cü ilin yekununa görə hər səhm üçün 1615 manat dividend ödənilmişdir.

**23.10. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bu növ hüquqi proseslər olmamışdır.

**23.11. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Mövcud deyil.

## 24. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

**24.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

| **Səhmdarlar** | **Nizamnamə kapitalında payı (%)** |
|---|---|
| **Rezidentlər**<br>**Fiziki şəxslər:** | |
| Məmmədova Kəmalə Qələndər qızı | 100% |

Emitentin nizamnamə kapitalı hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 400 (dörd yüz) ədəd adi, sənədsiz, adlı səhmdən ibarət olmaqla cəmi 400 000 (dörd yüz min) manat məbləğində təsbit olunmuşdur. Dövlət qeydiyyat nömrəsi: AZ1001023204. Səhmdarlar Emitent tərəfindən yeni səhmlər buraxılarkən onları almağa üstünlük hüququna malikdir. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Emitentin adi səhmlərinin sahibləri olan səhmdarları nizamnamədə müəyyən edilmiş aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin idarə edilməsində qanunvericiliklə və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- Emitentin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- Emitentin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

- Emitentin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Emitentin xalis mənfəətindən dividend almaq;
- Emitentin fəaliyyətinə xitam verildikdə, Emitentin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- İcra Orqanının və Müşahidə Şurasının üzvlərinin səhlənkarlığına və səhmdar Emitentə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- Emitentin səhmlərinin satışı prosesində iştirak etmək;
- Bağlanmış əqd nəticəsində Emitentə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
- Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;
- Qüvvədə olan qanunvericiliklə və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**24.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:** Emitentin emissiya hesabında səhmləri mövcud deyil.

**24.3. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:** Emitentin törəmə müəssisəsi mövcud deyildir.

**24.4. Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat:** Konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları mövcud deyil.

**24.5. Emitentin səhmlərinə olan opsionlar barədə məlumat:** Emitentin səhmlərinə opsion tətbiq edilmir.

**24.6. Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat:** Emitent 05.01.2023-cü il tarixində hər birinin nominal dəyəri 1 000,00 AZN (bir min manat) olan 400 (dörd yüz) ədəd adlı, sənədsiz, adi səhmlərini emissiya etməklə əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını 800 000,00 AZN (səkkiz yüz min manat) məbləğinə çatdırmışdır. Emitent 13.01.2023-cü il tarixində hər birinin nominal dəyəri 1 000,00 (bir min manat) olan 800 (səkkiz yüz) ədəd adlı, sənədsiz, adi səhmlərdən 400 (dörd yüz) ədədini dövriyyədən çıxarmaqla nizamnamə kapitalını 400 000,00 manat məbləğinə çatdırmışdır. Hazırda Emitentin nizamnamə kapitalı hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 400 (dörd yüz) ədəd adlı, sənədsiz, adi səhmdən ibarət olmaqla cəmi 400 000,00 AZN (dörd yüz min) manat məbləğində təsbit olunmuşdur.

**24.7. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**24.7.1. fəaliyyət və məqsədlərin təsviri:**

Cəmiyyət Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş əsas və yardımçı investisiya xidmətləri göstərir. Cəmiyyət aşağıda öz əksini tapmış əsas investisiya xidmətləri göstərir:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatların aparılması;
- marja ticarəti.

Cəmiyyət aşağıda öz əksini tapmış yardımçı investisiya xidmətləri göstərir:

- müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;
- investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;
- təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;
- əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

Cəmiyyətin yaradılmasında və fəaliyyətində əsas məqsəd həyata keçirdiyi fəaliyyətdən gəlir (mənfəət) əldə etməkdir.

**24.7.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:**

24.7.2.1. Səhmdarların Ümumi Yığıncağı Cəmiyyətin ali idarəetmə orqanıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

24.7.2.1.1. Cəmiyyətin Nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;

24.7.2.1.2. Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

24.7.2.1.3. Cəmiyyətin İcra Orqanını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

24.7.2.1.4. İcra Orqanının səlahiyyətlərinin müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilməsinə razılıq vermək;

24.7.2.1.5 Cəmiyyətin yerləşdirilmiş səhmlərinin geri alınması zamanı səhmin qiymətini müəyyən etmək;

24.7.2.1.6. Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
24.7.2.1.7. Dividendlərin verilməsi qaydasını müəyyən etmək;
24.7.2.1.8. Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
24.7.2.1.9. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.2-ci və 99.3-cü maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək;
24.7.2.1.10. Hüquqi şəxslər, filial və nümayəndəliklər təsis etmək;
24.7.2.1.11 Səhmlərin və istiqrazların buraxılışı, səhmlərin geri alınması haqqında qərarlar qəbul etmək, o cümlədən Cəmiyyətin qiymətli kağızlarının (səhmlər və istiqrazlar da daxil olmaqla) buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək;
24.7.2.1.12 Qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.
24.7.2.2. Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurasının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:
24.7.2.2.1. Cəmiyyətin təşkilati strukturu, daxili qaydalarını təsdiq etmək;
24.7.2.2.2. Cəmiyyətin struktur bölmələrinin əsasnaməsini təsdiq etmək;
24.7.2.2.3. Cəmiyyətin İcra Orqanı tərəfindən Cəmiyyətin maraqlarına zidd qəbul edilmiş qərarları ləğv etmək və yeni qərar qəbul etmək;
24.7.2.2.4. Cəmiyyətin İcra Orqanı tərəfindən aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə əqdləri təsdiq etmək;
24.7.2.2.5. Cəmiyyətin fəaliyyət siyasətini müəyyən etmək;
24.7.2.2.6. Audit Komitəsinin üzvlərinin vəzifəyə təyin və vəzifədən azad etmək;
24.7.2.2.7. Cəmiyyətin kənar auditorunu təyin etmək;
24.7.2.2.8. Kənar auditor və/və ya Audit Komitəsinin yoxlamalarını nəzərdən keçirmək, bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
24.7.2.2.9 Səhmdarların Ümumi Yığıncağı və Cəmiyyətin İcra Orqanı üçün tövsiyələr vermək;
24.7.2.2.10 Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilməyən məsələlər barəsində qərar qəbul etmək.
24.7.2.3. Cəmiyyətin təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən İcraçı Direktor onun icra orqanıdır.
24.7.2.3.1. Cəmiyyətin İcra Orqanının səlahiyyətlərinə, müvafiq olaraq, Azərbaycan Respublikasının qanunları və bu Nizamnamə ilə Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər daxildir.
24.7.2.3.2 Cəmiyyətin İcra orqanı etibarnamə olmadan Cəmiyyəti təmsil etmək hüququna malikdir.

24.7.2.3.3. Cəmiyyətin İcraçı Direktorunun eyni zamanda digər təşkilatda vəzifə tutmasına, qanunvericiliklə zidd olmadıqda, Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağının razılığı ilə yol verilir.
24.7.2.3.4 Hər hansı bir əqdin bağlanması nəticəsində İcraçı Direktorun şəxsi marağı ilə Cəmiyyətin mənafeyi ziddiyyət təşkil edərsə, sonuncu bu barədə Müşahidə Şurasına yazılı qaydada məlumat verməlidir. Əqdin bağlanması yalnız Müşahidə Şurasının qərarı əsasında həyata keçirilə bilər.
24.7.2.3.5 Cəmiyyətin səhmlərinin 20 (iyirmi) faizinə malik olan səhmdar bu vəzifəyə təyin edilə bilməz.
24.7.2.3.6 İcraçı Direktor mülkiyyətində olan qiymətli kağızlarla əqdi bağlamazdan əvvəl bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.
24.7.2.4. Audit Komitəsi və Daxili Audit bölməsi:
24.7.2.4.1. Cəmiyyətin Müşahidə Şurası tərəfindən 3 (üç) il müddətinə məhdudiyyət qoyulmadan növbəti 3 (üç) il müddətinə seçilmək hüququ ilə tək sayda olmaqla azı 3 (üç) üzvdən ibarət Audit Komitəsi yaradılır.
24.7.2.4.2. Audit Komitəsinin üzvlərindən biri Müşahidə Şurasının qərarı ilə Audit Komitəsinin sədri təyin edilir.
24.7.2.4.3. Audit Komitəsinin üzvlərinin sayı və iş qaydası Müşahidə Şurası tərəfindən təsdiq edilmiş Audit Komitəsi haqqında Əsasnamə ilə müəyyən edilir.
24.7.2.4.4. İcra Orqanın üzvləri Audit Komitəsinin üzvü ola bilməz. Cəmiyyətin Müşahidə Şurasının üzvləri audit komitəsinin üzvü ola bilərlər.
24.7.2.4.5. Audit Komitəsinin üzvləri və daxili audit bölməsinin əməkdaşları qanunvericliklə müəyyən edilmiş tələblərə cavab verməlidir.
24.7.2.4.6. Cəmiyyətin daxili audit bölməsi Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və Cəmiyyətin İcra Orqanı ilə qarşılıqlı surətdə Cəmiyyətin daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliyinə fasiləsiz nəzarəti həyata keçirir.
24.7.2.4.7. Audit Komitəsi Cəmiyyətin Müşahidə Şurasına tabedir.
24.7.2.4.8. Daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və azad olunur. Cəmiyyətin daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin üzvləri arasından seçilə bilərlər
**24.7.3. mövcud səhmlərin hər bir növü məhdudiyyətlərin təsviri:**
Emitentin mövcud səhmlərinin yalnız bir növü (adi sənədsiz adlı səhmlər) olduğundan həmin növ səhmlər üzrə məhdudiyyətlər mövcud deyildir.
**24.7.4. səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası:** Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağının qərarı növbəti və növbədənkənar ola bilər. Səhmdarın növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq). Səhmdarların illik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, Müşahidə Şurası tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Səhmdarların illik Ümumi Yığıncağından əlavə olan hər hansı Səhmdarların Ümumi Yığıncağı Səhmdarların

növbədənkənar Ümumi Yığıncağı adlanır. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır. Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı altmış faizinin sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir. Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsi ilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır. Səhmdarların ümumi yığıncağının gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz. Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.
**24.8. Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

## SƏHMLƏR BARƏDƏ MƏLUMAT

### 25. ƏSAS MƏLUMAT

**25.1. Emitentin dövriyyə kapitalı (carı aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:** Dövriyyə kapitalı 31.12.2023-cü il tarixinə - 2.157.385,00 manat təşkil edir.

**25.2. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat:** Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə emitent əlavə vəsaitlərin cəlb edilməsi imkanına malikdir.

**25.3. Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat:**

| Göstəricilərin adı | 31.01.2024 | 31.12.2023 | 30.11.2023 |
|---|---|---|---|
| AR Mərkəzi Bankı | 9.951.157,31 | - | - |
| Dövlət istiqrazları | 3.386.962,22 | 2.187.010,28 | 15.330.891,30 |
| Korporativ istiqrazlar (təminatsız) | 206.235,50 | 206.235,50 | 206.235,50 |
| **Cəmi** | **13.544.355,03** | **2.393.245,78** | **15.536.591.30** |

**25.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**“Bakı Fond Birjası” QSC.** Emissiya prosesində iştirak edən “Bakı Fond Birjası” QSC (BFB) yeni emissiya edilmiş qiymətli kağızların listinqə daxil edilməsi, hərrac vasitəsilə qiymətli kağızların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti

formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında qanunun 16.1-ci maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasında depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır: qiymətli kağızların saxlanması və uçotunun aparılması; qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

**"CPM-İnvest İnvestisiya Şirkəti" ASC**. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. Emitentin qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, səhmlərin anderrayteri (öhdəlik götürmədən) qismində özü çıxış edəcəkdir. Bu xidmətin göstərilməsinə görə xidmət haqqı nəzərdə tutulmamışdır.

Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İcraçı direktoru Nəriman Hadiyev, Emitentin mühasibi Ellada Muradova, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir və emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyəti şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond Birjası səhmlər yerləşdirildikcə komissiya əldə edir və birbaşa maddi marağı vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**25.5. Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**
Təklifin səbəbləri nizamnamə kapitalının artırılması olduğunu nəzərə alaraq, vəsait Cəmiyyətin dövriyyə kapitalının artırılmasına yönəldiləcək.

**25.6. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri:** Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmə imkanına malikdir.

**25.7. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Mövcud deyil.

## 26. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT

**26.1. Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları:**
Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**26.2. Səhmlərin növü:** adi adlı sənədsiz səhm

**26.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə):**

| | Səhmlərin sayı | Nominal dəyəri |
|---|---|---|
| Yeni buraxılan | 400 (dörd yüz) ədəd | 1000 (bir min) manat |
| Mövcud olan | 400 (dörd yüz) ədəd | 1000 (bir min) manat |

**26.4. Səhmlərin dövlət qeydiyyat nömrəsi (tədavüldə olan):** AZ1001023204

**26.5. Səhmlərlə təsbit olunan hüquqlar:**

- Cəmiyyətin idarə edilməsində qanunvericiliklə və Cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- Cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

- İcra Orqanının və Müşahidə Şurasının üzvlərinin səhlənkarlığına və Cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;
- Bağlanmış əqd nəticəsində Cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
- Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq.
- Qüvvədə olan qanunvericiliklə və səhmdar Cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**26.6. Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**

Mövcud deyil.

**26.7. Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**

Milli Depozit Mərkəzi Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Səhmlərın yerləşdirilməsi prosesində MDM-in əsas vəzifəsi Səhmlərin saxlanması və səhm mülkiyyətçilərinin reyestrinin aparılmasıdır. Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanunu və MDM-in Daxili Qaydaları ilə tənzimlənir.

Ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141, Şokolad Tower

Telefon: +994 12 538 31 90

E-mail: info@mdm.gov.az

**26.8. Dividend siyasəti:** Hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir. Səhmdar cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar cəmiyyətinin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Səhmdarların tərkibinin dəyişməsi

dividendlərin ödənilməsi barədə qərarın Mülki Məcəllə ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.

**26.9. Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd:** Səhmdarlar səhmdar cəmiyyətinin səhmlərini almaqda üstünlük hüququna malikdirlər. Səhmlər dövlət qeydiyyatına alındıqdan sonra 5 (beş) iş günü ərzində səhmdar cəmiyyəti tərəfindən sifarişli poçt göndərişi ilə hər bir səhmdara bildiriş göndəriləcəkdir. Səhmdar üstünlük hüququndan istifadə etməsi barədə yazılı tələbini bildirişi aldığı tarixdən 10 (on) iş günü günü ərzində səhmdar cəmiyyətinin icra orqanına təqdim edə bilər.

**26.10. Səhmlərin geri satın alınma şərtləri (olduqda):** Nəzərdə tutulmayıb.

**26.11. Səhmlərin konvertasiyası şərtləri (olduqda):** Nəzərdə tutulmayıb.

**26.12. Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Yeganə səhmdarın ümumi yığıncağının 15.02.2024-cü il tarixli, 03/24 saylı Protokolu.

**26.13. Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Nəzərdə tutulmayıb.

**26.14. Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat:** Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təklif mövcud deyil.

**26.15. Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericiliklə Ödəmə mənbəyində dividenddən vergi tutulması AR Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

## 27. TƏKLİFİN ŞƏRTLƏRİ

**27.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İlk növbədə, Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri “CPM-İnvest İnvestisiya Şirkəti” ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya səhmdarlar üstünlük hüququndan istifadə ilə əlaqədar münasibət bildirdikdən sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 ( iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 iş günündən çox olmayacaqdır. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan “Azər-Türk Bank” ASC-də - emitentin açdığı müvəqqəti cari hesabda (yığım hesabı) saxlanılır. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**27.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektinə dəyişikliklərin Dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində maliyyə bazarlarına nəzarət orqanına təqdim ediləcək. Emissiya prospektində edilmiş dəyişikliklər Dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) https://www.cbar.az/meas, Bakı Fond Birjasının rəsmi internet səhifəsində https://www.bfb.az/az və emitentin internet səhifəsində https://cpminvest.az/ açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**27.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Nəzərdə tutulmamışdır, təklif yalnız “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**27.4. Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri:**

Buraxılış üzrə elan olunmuş ümumi 400 000 (dörd yüz min) manat məbləğində 400 (dörd yüz) ədəd səhmin yerləşdirilməsi başa çatdıqda**.**

**27.5. Səhmlərə abunə yazılışının qaydası:**

Hər birinin nominal dəyəri 1000 AZN (bir min manat) olan 400 (dörd yüz) ədəd səhmlərin təklifi nəzərdə tutulur. İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur.

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri “CPM-İnvest İnvestisiya Şirkəti” ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya səhmdarlar üstünlük hüququndan istifadə ilə əlaqədar münasibət bildirdikdən sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 ( iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 iş günündən çox olmayacaqdır. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

**27.6. Abunə yazılışının minimum və maksimum məbləği:** Nəzərdə tutulmayıb.

**27.7. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:** Abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri çağırılmasını tələb edə bilməzlər. Abunə müddətində elan olunmuş 400 000,00 (dörd yüz min) manat məbləğindən artıq məbləğin ödənilməsi nəzərdə tutulmur.

**27.8. Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:** Abunə yazılışı zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə səhmlərə tələb təklifdən çox olduğu təqdirdə səhmlər investorlar arasında onların sifarişlərində göstərilmiş səhmlərin miqdarına uyğun olaraq mütənasib miqdarda yerləşdirilir. Yerləşdirmə “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında” Qaydalarına əsasən həyata keçirilir. Elan olunmuş 400 000 (dörd yüz min) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır. Mövcud səhmdar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduğu paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdir

**27.9. Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri:** Sifarişlər elan olunmuş məbləğ həddində qəbul edilir və səhmlərin nominal dəyəri ilə yerləşdirilir. Emitentin mövcud səhmdarları səhmlərə mütənasib qaydada üstünlük hüququndan istifadə etdikdən sonra növbəlilik qaydasında sifarişlərə baxılır. Bir şəxs tərəfindən sifariş yerləşdirilən zaman say məhdudiyyəti yoxdur.

**27.10. Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası:**

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan "Azər-Türk Bank" ASC-də - emitentin açdığı müvəqqəti cari hesabda (yığım hesabı) saxlanılır. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

27.11. **Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:** Əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ mövcud səhmdarlara məxsusdur. Səhmdar ona məxsus səhmlərə mütənasib qaydada yeni buraxılan səhmləri almaq hüququ vardır. Üstünlük hüququdan istifadə etmədikdə mövcud səhmdarın payı 400 ədəd səhm qalmaqla 50% təşkil edəcəkdir. Üstünlük hüququ olan səhmdarlar sifarişlərini anderrayterə təqdim etdikdən sonra Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

27.12. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Mövcud deyil.

27.13. **Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Abunə yazılışının müddəti abunə başlandığı tarixdən etibarən 5 iş günü müəyyən edilir. Bu müddət bitdiyi andan etibarən emitent tərəfindən investorlara səhmlərin satışının başlanması haqqında yazılı bildiriş göndərilir.

27.14. **Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat:** Emitentin mövcud səhmdarı Məmmədov Kəmalə Qələndər qızı səhmlərin yerləşdirilməsi zamanı üstünlük hüququna malikdir.

27.15. **İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat:** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcüd deyil. Lakin bu bənddə nəzərdə tutulan şəxslərin emissiyada iştirakı istisna olunmur.

27.16. **Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları:** Nəzərdə tutulmayıb.

27.17. **Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** Yerləşdirmənin başlanma

tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1 000 (bir min) manat təşkil edir.

**27.18. Satış qiymətinin açıqlanma qaydası:**

Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra kütləvi informasiya vasitələrində emissiya prospekti açıqlanacaqdır və səhmin satış qiyməti barədə bütün investorlar məlumatlandırılmış olacaqdır. Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1 000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir

**27.19. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergi** - Səhm alıcısının səhmlərin alınması zamanı vergi ödəmə öhdəliyi mövcud deyil. Qanunvericiliklə ödəmə mənbəyində dividenddən vergi tutulması AR Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**Səhm alıcısının ödəməli olduğu xərcləri -**

- əqdin məbləğinin 0,05% (min. 0,5 və maks. 500 manat) həcmində BFB komissiyası;
- “depo” hesab açılışı üçün 5 manat;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**27.20. Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı:**

Emitentin qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, səhmlərin öhdəlik götürmədən yerləşdirilməsi üzrə «CPM-İnvest İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti anderrayteri (öhdəlik götürmədən) qismində özü çıxış edəcəkdir. “CPM-İnvest İnvestisiya Şirkəti” ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

VÖEN:1405409161

Telefonlar: +994 12 460 70 00

Elektron poçt: info@cpminvest.az

## 28. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**28.1. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında abunə yazılışı yolu ilə həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş Tənzimlənən bazarda ticarətə buraxılma "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir.

BFB 2000-ci ildə Qapalı Səhmdar Cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az

Elektron poçt ünvanı: info@bse.az

Əlaqə vasitəsi: (+99412) 498 98 20

VÖEN: 1700262271

Lisenziya müddəti: müddətsiz.

**28.2. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (BFB) yeni emissiya edilmiş qiymətli kağızların listinqə daxil edilməsi, hərrac vasitəsilə

qiymətli kağızların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;

- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**28.3. Market meyker(lər) barədə məlumat (olduqda):** Səhmlər üzrə marketmeyker nəzərdə tutulmamışdır.

**28.4. Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması:** Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması nəzərdə tutulmayıb.

## 29. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT

Belə məlumat mövcud deyil.

## 30. EMİSSİYA XƏRCİ

**30.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:** Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği.Emissiya prospektinin dövlət qeydiyyatına alınması ilə bağlı dövlət rüsumu - 1200 manat; “Bakı Fond Birjası” QSC-nin səhmlərinin yerləşdirilməsi üzrə xidmət haqqı 0.05% (min.0.5-max.500 azn). Xidmət haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir. Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0.02 %-i, (minimum 50, maksimum 5000) ödənilir. Səhmlərin listinqə salınması üçün olan xidmət haqqı-500 manat. Cəlb olunacaq vəsaitlərin xalis məbləği 397 740 manat təşkil edəcək.

## 31. PAYIN AZALMASI

**31.1. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları:** Səhmlər kütləvi təklif edilir. Lakin emitentin səhmdarı öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edərək öz paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilər. Cəmiyyətin mövcud səhmdarı üstünlük hüququndan istifadə etməzsə abunə yazılışına yazılmış investorlar növbəlik qaydasında səhmləri əldə edə bilərlər. Səhmdar öz üstünlük hüququndan istifadə etdikdə, səhmdarın nizamnamə kapitalında payı 400 (dörd yüz) ədəd səhm artaraq - nəticədə 800 (səkkiz yüz) səhm, 100% təşkil edəcəkdir. Mövcud səhmdar tərəfindən üstünlük hüququ istifadə edilmədiyi təqdirdə mövcud səhmdarın emitentdə iştirak payı 50% olacaqdır.